# Görkəmli elm xadimi, müəllim, yazıçı



**Dostluq fədakarlıqdır. Zəmanəmizin enişli-yoxuşlu, çənli-dumanlı çətin anlarında insanların, sözün tam mənasında, həqiqi dostluq etməsi Allahın lütfüdür. Bu qismətdir, hər adama nəsib olmur, hər kəs ülfət bağladığı insanla dostluğu ömrünün axırınadək saxlaya bilmir. Kim bacarırsa, dostluq doğmalaşır.**

**Bakı Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru, “Şöhrət” ordenli, Əməkdar müəllim Qara Mustafa oğlu Namazovun 2016-cı ildə ömrün 85-ci baharına qədəm qoymasını eşidəndə bu sözləri iftixarla fikrimdən keçirdim.**

60 il öncə İrəvan şəhərinin mərkəzi meydançasında əsgərlikdən yenicə tərxis olunmuş Qara Namazovla rastlaşdım. Bu ilk səmimi görüş Krasnoselo rayonunun Əmirxeyir kəndinin dağ cığırından Azərbaycanın paytaxtı Bakıya doğru yolda baş vermişdi. “Sovet Ermənistanı” qəzetində gənc şairlərin yaradıcılığına həsr etdiyim səhifələrdə Qara Namazovun redaksiyaya göndərdiyi ilk şeirini dərc etmişdim. Bakıya ali təhsil almağa getməzdən əvvəl Qaranın yolüstü mənimlə görüşməsi xoş təsadüf idi.

1961-ci ildə AMEA-nın Ədəbiyyat İnstitutunun aspiranturasına qəbul olundum. O zaman Qara Namazov Azərbaycan Dövlət Universitetini bitirib Akademiyanın Tarix İnstitutunun elmi kitabxanası və arxivinin müdiri (1962-1967) işləyirdi. Mehriban, qayğıkeş tibb işçisi Zenfira xanımla ailə həyatı qurmaqda bəxti gətirmişdi: O, ilk gündən həm Qara Namazovun sağlamlığının keşikçisi, həm də tərbiyəli övladların boya-başa çatmasında, təhsil almasında, xoşbəxt ailə qurmasında, cəmiyyətdə mövqe qazanmasında ömür-gün yoldaşına dayaq olmuşdur. Məhz ailədə etimad və məhəbbət, elə bil ki, zəhmətkeş və istedadlı Qara Namazovun hərtərəfli inkişafına zəmin yaratmışdı. Xoş ünsiyyətli Qara Namazov filologiya elmini, xalq yaradıcılığını cidd-cəhdlə öyrənirdi.

Qara Namazovun “Gecikmiş nəğmələr” (2008) şeirlər toplusu, dövri mətbuatda dərc etdirdiyi hekayələr və “Səlimə” adı ilə V.Şufun 1902-ci ildə yazdığı “Şamaxının məhvi” poemasını rus dilindən poetik tərcüməsi onun bədii yaradıcılıqla da ciddi məşğul olmasını göstərirdi.

Bakı elmi-ictimai mühiti Qara Namazovun dünyagörüşündə təbəddülat yaratdı. O, 1965-ci ildə Nizami adına Ədəbiyyat İnstitutunun şifahi xalq ədəbiyyatı şöbəsinin qiyabi aspiranturasına daxil oldu. Akademik Həmid Araslının rəhbərliyi ilə “Azərbaycan aşıq şeirinin inkişaf tarixindən” (1920-1950-ci illər) mövzusunda dissertasiya yazıb uğurla müdafiə etdi, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi aldı. Bundan sonra aşıq yaradıcılığı istiqamətində elmi, tədqiqatını davam etdirdi: xalqımızın məişətinə daxil olan sinkretik aşıq sənətinin qədim tarixi köklərini, inkişaf mərhələlərini və müasir durumunu araşdırdı. Onun “Aşığın sazı və sözü” (1980), “Azərbaycan aşıq sənəti” (1984) monoqrafiyaları, “Aşıq sənəti” tədris proqramı milli folklorşünaslıq elmini zənginləşdirdi, yeni tədqiqatlara zəmin yaratdı.

Qara Namazov Azərbaycan uşaq ədəbiyyatının tədqiqi, təbliği, tədrisi və nəşri sahəsində də misilsiz xidmət göstərmişdir. O, Bakı Dövlət Universitetində iyirmi il uşaq ədəbiyyatı fənnini tədris etdiyi müddət ərzində “Azərbaycan uşaq ədəbiyyatı” (1984) dərsliyini, bir sıra dəyərli elmi məqalələri, o cümlədən “Gənclik” nəşriyyatının 50 cilddə nəşrinin (uşaq ədəbiyyatı seriyası) XIX-XX yüzilliyi əhatə edən povest və hekayələr toplusuna “Azərbaycan nəsrinin təkamülü” sərlövhəli geniş ön sözü, uşaq yazıçılarının həyat və yaradıcılığına həsr etdiyi ədəbi portretləri yazıb çap etdirmişdir. Azərbaycan Dövlət Ensiklopediyası Qara Namazovun toplayıb tərtib etdiyi 6 kitabı (“Yanıltmaclar”, “Tap-tapmaca”, “Lətifələr”, “Qara kəlim asta gedər”, “Sınamalar” və “Loğman”) nəfis şəkildə kütləvi tirajla nəşr etmişdir.

1987-ci ildə Azərbaycan uşaq ədəbiyyatının tanınmış araşdırıcısı, dosent Qara Namazov doktorluq dissertasiyası (“Azərbaycan uşaq və gənclər ədəbiyyatının inkişaf mərhələləri (1920-1980-ci illər)” müdafiə edib filologiya elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. İki ildən sonra AAK folklorşünas alimə professor rütbəsi vermişdir.

Ozan-aşıq sənətinin qaynaqlarını araşdırarkən “Kitabi-Dədə Qorqud” abidəsinə tez-tez müraciət etməsi Qara Namazovun eposun tədqiqinə böyük marağı ilə sıx bağlı olmuşdur.

“Kitabi-Dədə Qorqud” eposunun 1300 illik yubileyi tədbirlərində — konfranslarda, ali məktəblərdə, televiziya verilişlərində epos haqqında maraqlı çıxışlar etməsi də bu problemin onu özünə kəhrəba kimi çəkməsini göstərirdi. Sovet hakimiyyəti “Kitabi-Dədə Qorqud” ədəbi abidəsinin öyrənilməsinə qadağa qoymuşdu. Müstəqillik bərpa edildikdən sonra Qara Namazov səriştəli tədqiqatçı kimi bilik və bacarığını eposun öyrənilməsi məsələsinə həsr etdi. O öz araşdırmasına “Kitabi-Dədə Qorqud” eposundan öncəki daha qədim qəhrəmanlıq dastanlarından başladı. Beləliklə, mövzunun öyrənilməsi probleminə yeni elmi mülahizələr əlavə etdi. “Aratta-şümer mədəniyyəti”, “Oğuz-türk alpçılıq” dastanları: “Şan qızı dastanı”, “Qazaxıstan haqqında Qaraqoyunlu əfsanəsi”, “Ağcaqala rəvayəti”, “Buğacın nağılı”, “Oğuz kağan və Dədə Qorqud”, “Dədə Qorqudun şəxsiyyəti”, “Dədə Qorqud və Dədə Kərəm” və sair araşdırmaları Qara Namazovu qorqudşünas alim kimi tanıtdı. Bu cəhətdən onun universitetdə Dədə Qorqud Elmi Tədqiqat Laboratoriyasına rəhbərlik etməsi təsadüfi deyildi. O, burada eposun yeni elmi istiqamətdə tədqiqinin əsasını qoydu.

Qara Namazov geniş erudisiyalı, mütəfəkkir ədəbiyyatşünas alim, fədakar müəllimdir. O, taleyini Bakı Dövlət Universitetinə bağladığı 50 il ərzində folklor və uşaq ədəbiyyatı sahəsində görkəmli mütəxəssis, həm də müasir Azərbaycan ədəbiyyatının tədqiqatçısı və nüfuzlu pedaqoqu kimi tanınmışdır. Onun müasir ədəbiyyatın aktual problemlərinə, yazıçıların yaradıcılığına həsr etdiyi məqalələri, ədəbi oçerkləri, ədəbi-tənqidi mülahizələri elmi ictimaiyyətin diqqətini cəlb etmişdir. Qara Namazov ali məktəblərdə tədris olunan “Müasir Azərbaycan ədəbiyyatı” dərsliyinin müəlliflərindən biridir. O, milli ədəbiyyatşünaslığa da yeni tapıntıları ilə töhfə vermişdir. Onun “Molla Pənah Vaqifin ilk əlyazması (1829), “Yunis İmrə və Molla Qasım”, “Təbriz dastanı”, “Şeyx Şamil” və sair kimi yeni tapıntıları, mətbuatda dərc edilmiş, ciddi maraq doğurmuşdur.

Müstəqil ölkəmizdə tariximizin, ədəbi-mədəni dəyərlərimizin milli konsepsiya əsasında dərindən tədqiqinə imkan yarandığı bir şəraitdə Qara Namazov Azərbaycan ədəbiyyatının azərbaycançılıq və dövlətçilik prinsiplərinə uyğun öyrənilməsində və təbliğində mübariz alim, vətəndaş müəllim kimi bacarığını əsirgəməmişdir. Universitetin ictimai həyatında onun təşkilatçılıq bacarığı, işgüzarlığı, kollektivin sevimlisinə çevrilməsi fikrimizi təsdiq edir. Qara Namazovun ictimai xadim kimi səciyyələndirən fəaliyyətini ötəri xatırlamaq yerinə düşərdi: Universitetdə filologiya fakültəsinin dekanı (2002-2006); Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri; Böyük elmi şuranın üzvü; Təhsil Nazirliyində elmi metodiki şuranın üzvü; Azərbaycan Mətbuat və Poliqrafiya Komitəsində nəşriyyatlar üzrə rəyçilər şurasının üzvü; “Ozan”, “Elmi araşdırmalar”, “Filoloji araşdırmalar”, “Dədə Qoqrud” toplularının redaksiya heyətinin üzvü; Universitetin “Elmi xəbərlər” jurnalının (humanitar seriyası) baş redaktorunun müavini, həmin jurnalın (Dil-ədəbiyyat seriyası), ədəbiyyat bölməsinin baş redaktoru; Filologiya fakültəsinin Müdafiə şurasının sədri; Şəki ərazi müdafiə şurasının həmsədri; “Dədə Qorqud” elmi araşdırmalar toplularının və Türkiyədə nəşr edilən “Baykara” toplusunun redaksiya heyətinin üzvü; Respublika Təhsil Nazirliyinin nəşr etdiyi 106 cilddə Azərbaycan və dünya ədəbiyyatı seriyası redaksiya şurasının, AMEA Folklor İnstitutunun 100 cilddə nəşrinin şifahi xalq ədəbiyyatı redaksiya şurasının üzvü, 2004-cü ildən Respublika Əlaqələndirmə Şurasının sədr müavini olmuşdur.

Qara Namazov universitetdə mədəni-kütləvi tədbirlərdə fəal iştirak etmişdir. O, filologiya fakültə həmkarlar təşkilatının sədri kimi bir sıra kütləvi tədbirlərin təşəbbüsçüsü və təşkilatçısı olmuşdur. Onun gündəlik gərgin iş rejiminə baxmayaraq, magistr, aspirant və dissertantların hazırlanmasına böyük qayğı və həssaslıqla yanaşmışdır. O, indiyədək 27 doktorluq və namizədlik işinə rəhbərlik etmişdir.

Qara Namazovun milli ictimai fikrin inkişafında xidmətləri danılmazdır. Onun indiyədək külli miqdarda elmi-kütləvi məqalələri qəzet, jurnal və toplularda dərc edilmişdir. Elmi monoqrafik əsərləri, tərcümə kitabları kütləvi tirajla nəşr olunmuşdur. “Aşığın sazı və sözü” (1981), “Azərbaycan aşıq sənəti” (1984), Azərbaycan uşaq ədəbiyyatı (1984), “Aşıqlar haqqında bilgi kitabı” (2003), “Aşıqlar” (2004), “Xalq qəhrəmanının şöhrəti” (2005), “Azərbaycan uşaq ədəbiyyatı” (2007), “Müasir Azərbaycan ədəbiyyatı” (iki cilddə, 2007-2009), “C.Çercvardın tarixi kəşfləri” (2009), “Uşaq ədəbiyyatı antologiyası” (iki cilddə, 2004-2005) və sairə kitabları Qara Namazovu yorulmaz tədqiqatçı, fikir bahadırı, elm xadimi kimi səciyyələndirir. Etiraf etməliyik ki, bu orijinal, dəyərli əsərlər milli ədəbiyyatımızın inkişafında təsirsiz qalmamış, yeni-yeni tədqiqatların yaranmasına cığır açmışdır.

Qara Namazov İsveçrə, Bolqarıstan, Türkiyə ölkələrində elmi konfrans və simpoziumlarda iştirak etmiş, elmi məruzələrlə çıxış etmişdir. O, Türkiyənin Ankara, Gorum, Merzifon, Sifitke və Uşşaq şəhərlərində səfərlərdə olmuş, uluslararası xalq yaradıcılığı festivallarında aşıq sənəti, şifahi xalq ədəbiyyatı əlaqələri mövzusunda elmi məruzələri maraqla qarşılanmışdır.

Türkiyənin Samsun Universitetinə dəvət alan Qara Namazov Amasiya, Sipor və digər şəhərlərin ali məktəblərinin gələcəkdə Bakı Dövlət Universiteti ilə “qarşılıqlı elmi-tədris əlaqələri ətrafında” aparılan müzakirələrdə, görüşlərdə fəal iştirak etmişdir.

Gorumda (Türkiyə) nəşr edilən “Hakimiyyət” qəzeti professor Qara Namazovun müsahibələrini, məqalələrini və görüşlərini çap etmiş, onu türk xalq ədəbiyyatının görkəmli bilicisi kimi səciyyələndirmişdir.

Qara Namazov gənclik illərindən bədii yaradıcılıqla da məşğul olmuşdur. Onun lirik şeirləri İrəvan şəhərində “Sovet Ermənistanı” qəzetində, Səməd Vurğuna həsr etdiyi “Bir qərinədə” poeması isə “Ədəbi Ermənistan” almanaxında çap edilmişdir. O, rus, latış və Ukrayna şairlərindən tərcümələr də etmişdir. Qara Namazovun romantika ilə süslənmiş ilk qələm təcrübələrində saf sevgi, vətən məhəbbəti, təbiətin ecazkar gözəlliyi təsvir olunur.

Lakin Bakının ədəbi-elmi mühiti, yazıçı aləmi ilə tanışlığı onun dünyagörüşünə təsir etdi, ilham pərisinə qol-qanad verdi.

Qara Namazov onu həyəcanlandıran həyat həqiqətlərini sənətkarlıqla qələmə aldı. Hekayələrində rəngarəng lövhələrdə dolğun, inandırıcı real həyat səhnələri təsvir edilirdi.

Qara Namazovun “Gecikmiş nəğmələr” (2008) kitabında müxtəlif illərdə yazdığı əsərlər onun ədəbi yaradıcılığında püxtələşmə prosesini dolğun əks etdirir.

O öz yaradıcılığında baş verən dəyişikliyi belə səciyyələndirir:

“Gənclikdə hiss, romantik boyalar qüvvətlidirsə, yetkinlik çağlarında həyat düşüncələri, zamanın gerçəklikləri onu özünə çəkir, realist olur. İnsan təbiəti belədir”.

Qara Namazov çoxcəhətli yaradıcılığı, ictimai-elmi fəaliyyəti və nəcabəti, mədəni davranışı, işgüzarlığı, ciddi mövqeyi və qayğıkeşliyi ilə Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmovun dərin hörmətini, eləcə də tələbələrin və müəllim heyətinin hüsnrəğbətini qazanmışdır.

Filologiya elmləri doktoru, professor Qara Namazovu kim soruşarsa, “Bizim Qara” cavabını eşidər. Əlbəttə, bu, böyük şəxsiyyətə, insana, elm xadiminə, müəllimə böyük etiram və məhəbbətin əlamətidir. Qara Namazovun Vətən və xalq qarşısında fədakar xidmətləri möhtərəm Prezident İlham Əliyevin sərəncamı ilə yüksək qiymətləndirilmişdir: Ona “Əməkdar müəllim” (2000) fəxri adı, “Şöhrət” ordeni (2009) verilmişdir.

Qara Namazov “Fəxri fərman”a, “Vətən andı” (2007), “Mir Cəlal” (2008) və “Qızıl qələm” (2009) mükafatlarına layiq görülmüşdür.

Yeni ildə gənclik ehtirası ilə yazıb-yaratmaq əzmində olan professor Qara Namazova həmkarları adından möhkəm sağlamlıq, həyatda, elmi və pedaqoji fəaliyyətində uğurlar arzulayıram.

**Teymur ƏHMƏDOV.**